# MÜBARİZ KEŞİKDƏ

19 sentyabr 2019-cu il
Cümə axşamı
№ 36 (3451)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik
AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV BAKININ BİNƏQƏDİ RAYONUNDAKI 300 NÖMRƏLİ MƏKTƏBİN YENİ TƏDRİS KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 16-da Bakının Binəqədi rayonundakı 300 nömrəli tam orta məktəbin 960 şagird yerlik yeni tədris kompleksinin açılışında iştirak ediblər.

Təhsil müəssisəsinin direktoru İradə Xəlilova görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verib.

Bildirildi ki, məktəbin yeni tədris kompleksində ən müasir şərait yaradılıb. Burada şagirdlər müxtəlif laboratoriyalarda əyani təlimlər keçərək biliklərini artıra, idman zalında idmanın müxtəlif növləri ilə məşğul ola biləcəklər.

Bu təhsil ocağının binası 1932-ci ildə tikilib. O zaman məktəb 400 şagird yerlik olub. Hazırda isə burada yeni istifadəyə verilən tədris kompleksi ilə birlikdə ümumilikdə 1944 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 138 müəllim heyəti məşğul olur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni tədris kompleksinin idman zalında, hərbi otaqda, ekosinifdə, informatika otağında, kimya kabinetində, ayrı-ayrı sinif



otaqlarında və yeməkxanada yaradılan şəraitlə tanış oldular, müəllimlər və şagirdlərlə söhbət etdilər, onlara yeni tədris ilində uğurlar arzuladılar.

Məlumat verilib ki, ötən tədris ilində bu təhsil müəssisəsini bitirən məzunların 77 faizi ali məktəblərə qəbul olub. Ümumilikdə, hər il bu məktəbin məzunlarının arasında 600-dan çox bal toplayan və ölkəmizin ali təhsil ocaqları ilə yanaşı, xarici dövlətlərin nüfuzlu universitetlərinə də qəbul olan məzunlar var.

Hər bir dövlətin inkişafı və gələcəyi onun təhsil səviyyəsi ilə bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayədir. Azərbaycan bu baxımdan hazırda dünyada lider ölkələrdəndir. Heç bir ölkədə bu cür qısa müddət ərzində bu sayda məktəb tikilməyib. Bu istiqamətdə atılan addımlara Heydər Əliyev Fondunun töhfələri də olduqca mühümdür. Fondun bu sahədə həyata keçirdiyi layihələrin coğrafiyası və miqyası ilbəil daha da genişlənir.

Məktəbdə yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva müəllimlər və valideynlərlə görüşüb onları təbrik ediblər.

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 13-də Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində yeni salınan istirahət parkında yaradılan şəraitlə tanış olub.***

# AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVANIN ŞAMAXI VƏ İSMAYILLI RAYONLARINA SƏFƏRİ

Sentyabrın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Şamaxı və İsmayıllı rayonlarında səfərdə olub.

Ölkənin bütün regionları kimi Şamaxı rayonunda da abadlıq, quruculuq və yenidənqurma işləri uğurla davam edir. Rayonda bir-birinin ardınca mühüm əhəmiyyətli iqtisadi və sosial obyektlər istifadəyə verilir. Onlardan biri də Şamaxının Məlikçobanlı kəndində yeni tikilmiş Gülağa Ağayev adına tam orta məktəbin binasıdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva baş verən zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində Heydər Əliyev Fondu tərəfindən inşa edilən evdə yaradılan şəraitlə tanış olub.

Birinci vitse-prezident Mehriban Əliyeva burada rayon sakinləri ilə görüşüb söhbət edib.

Şamaxılılar ümumi amallar naminə bundan sonra da səylərini əsirgəməyəcəklərini vurğulayıblar, Prezident İlham Əliyevə xüsusi salamlarının çatdırılmasını xahiş ediblər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 14-də Şamaxı rayonuna səfərini başa çatdıraraq İsmayıllı rayonuna gəlib.

məktəbin açılışında iştirak ediblər.

Birinci vitse-prezident Mehriban Əliyeva məktəbdə yaradılan şəraitlə tanış olub.

Həmin gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva Şamaxı Cümə məscidini ziyarət ediblər.

Məscidin imamı Mərhəmət Mustafayev ziyarətə gələnlərin bu müqəddəs ocağın yenidən bərpa olunmasını minnətdarlıqla xatırladıqlarını bildirib. O, Mehriban Əliyevaya müqəddəs Qurani-Kərim hədiyyə edib.

Sonda xatirə şəkli çəkdirilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 14-də Şamaxıya səfəri çərçivəsində şəhərin Şirvanşah İbrahim küçəsi 26 ünvanında yaşayan Hicran İsmayılovaya məxsus, bu il fevralın 5-də və 6-da

Birinci vitse-prezident Mehriban Əliyeva İsmayıllı rayonuna səfəri çərçivəsində Diyallı kənd sakini Sədiqə Orucovaya məxsus, zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində inşa edilən yeni evə gəlib, burada yaradılan şəraitlə tanış olub.

Sentyabrın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva İsmayıllı şəhərinin Vahab Osmanov küçəsində inşa olunan yeni uşaq bağçasının açılışında iştirak ediblər.

Sentyabrın 14-də İsmayıllı rayonunun İvanovka kəndindəki Mədəniyyət Sarayının əsaslı təmirdən sonra açılışı olub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva açılışda iştirak ediblər.

# BAKIDA BƏDİİ GİMNASTİKA ÜZRƏ 37-ci DÜNYA ÇEMPİONATININ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDİBLƏR

Sentyabrın 16-da Bakıda, Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 37-ci dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva və ailə üzvləri açılış mərasiminə baxıblar.

Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova da açılış mərasimində olub.

**Bakı Metropoliteninin “Xətai” stansiyası əsaslı təmir və yenidənqurmadan sonra sentyabrın 12-də istifadəyə verilib.**

**Azərbaycan Prezidenti İlham Əliyev stansiyada görülən işlərlə tanış olub.**

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Suraxanı rayonundakı 101 nömrəli orta məktəbdə aparılan təmir-tikinti və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.***

**Dövlətimizin rəhbəri İlham Əliyev sentyabrın 13-də Bakının Suraxanı rayonunda əsaslı şəkildə yenidən qurulan 208 nömrəli orta məktəbdə yaradılan şəraitlə tanış olub.**

***Sentyabrın 13-də Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib.***

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakı şəhərinin Nərimanov rayonunda yenidən qurulan Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların açılışında iştirak edib.**

# DAXİLİ İŞLƏR NAZİRİ VƏTƏNDAŞLARI QƏBUL EDƏCƏK



Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2019-cu il sentyabr ayının 28-də Lənkəran Şəhər-Rayon Polis Şöbəsində Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

**Sentyabrın 16-da Daxili İşlər Nazirliyində “Mülkiyyət əleyhinə olan cinayətlərin və qeyri-aşkar şəraitdə baş vermiş xırda talamaların qarşısının alınması və açılması”nın, həmçinin “Polis sahə rəisləri və inspektorları tərəfindən inzibati qanunvericiliyin tətbiqi sahəsində görülmüş işlər”in vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**

*Bax səh.2.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Sentyabrın 16-da Daxili İşlər Nazirliyində "Mülkiyyət əleyhinə olan cinayətlərin və qeyri-aşkar şəraitdə baş vermiş xırda talamaların qarşısının alınması və açılması"nın, həmçinin "Polis sahə rəisləri və inspektorları tərəfindən inzibati qanunvericiliyin tətbiqi sahəsində görülmüş işlər"in vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin aktuallığını, daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı mühüm istiqamətləri əhatə etdiyini bildirib.**






O, müvafiq sahələrdə əməliyyat-xidməti fəaliyyətin məqsədyönlü təşkilinin insan hüquq və azadlıqlarının, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin etibarlı qorunması, bütövlükdə vətəndaş məmnunluğunun təmin edilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Gündəlikdəki məsələlərlə bağlı Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov və Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov məruzə ilə çıxış edərək əldə edilmiş nəticələrdən, xidməti fəaliyyətdə yol verilmiş nöqsanlardan və onların aradan qaldırılması üçün görüləcək işlərdən danışıblar.

Məruzələr ətrafında ayrı-ayrı şəhər, rayon polis orqanlarının rəisləri çıxış edib.

İclasa yekun vuran nazir V.Eyvazov cari ilin 8 ayında asayişin və ictimai təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında əldə olunmuş müsbət nəticələrin hesabat dövründə də qorunub-saxlanıldığını diqqətə çatdırıb. O, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələrin 13,8, adam öldürməyə cəhdlərin 18,5, qəsdən sağlamlığa ağır zərərvurmaların 1,8, odlu silahın tətbiqi ilə törədilən cinayətlərin 7,5, mülkiyyət əleyhinə olan cinayətlərin 12,2, o cümlədən quldurluqların 7, hədə-qorxu ilə tələb etmələrin 19, dələduzluqların 27 faiz azaldığını, habelə cinayətlərin açılmasının yüksək olduğunu qeyd edib.

Daxili İşlər naziri gündəlikdəki məsələlər üzrə görülən işlərin ümumən qənaətbəxş olduğunu, eyni zamanda, bəzi ərazi orqanlarında müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu diqqətə çatdıraraq onların aradan qaldırılması üçün adekvat tədbirlərin görülməsini tələb edib.

İlk növbədə cari ilin ötən dövründə bir tona yaxın narkotik vasitənin qanunsuz dövriyyədən çıxarıldığını bildirən nazir, bu sahədə fəaliyyətin nəticələrinin tam qənaətbəxş olmadığını, antinarkotik təbliğatın gənclər arasında, təhsil müəssisələrində, kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə gücləndirilməsinin vacibliyi, xüsusən cinayətkar qruplaşmaların yeni metodlardan - internet informasiya resurslarından istifadə etməklə narkotiklərin satışını həyata keçirmək cəhdlərinin qarşısının alınması üzrə icrası zəruri olan tədbirlər barədə konkret tapşırıqlar verib.

Ölkə Prezidentinin qarşıya qoyduğu əsas vəzifələrdən birinin də vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu xatırladan nazir bütün müraciətlərə operativ baxılıb qanuni qərarların qəbul edilməsinin, cinayətlər nəticəsində zərərçəkmiş şəxslərə dəymiş ziyanın istintaq və təhqiqat prosesində ödətdirilməsinin, polisin səlahiyyətinə aid məsələlərlə əlaqədar göstərilən xidmətlərin nümunəvi təmin edilməsinin hər bir orqan rəisinin gündəlik nəzarətində saxlanılmasının vacibliyini nəzərə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti qanunvericilikdə nəzərdə tutulan məsul vəzifələrin və qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gələcək, ölkədə sabitliyin və əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün bundan sonra da qüvvə və bacarığını əsirgəməyəcək, daha böyük əzmlə çalışacaqdır.

*16 sentyabr 2019-cu il*

# AZƏRBAYCAN POLİSİNİN "BİLİK GÜNÜ"nə TÖHFƏSİ

**Yeni dərs ilinin başlaması ilə əlaqədar polis əməkdaşları tərəfindən silsilə tədbirlər həyata keçirilib. Respublikanın əksər Şəhər və Rayon Polis şöbələrində Vətənin bütövlüyü uğrunda və cinayətkarlıqla mübarizədə canından keçmiş şəhidlərin əzizləri, Qarabağ müharibəsi veteranları və aztəminatlı ailələrlə görüşlər keçirilib.**



Görüşlərdə təhsilin Azərbaycanın dövlət siyasətinin və milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri olduğu qeyd edilib, ölkəmizdə uşaqların sağlam böyümələri, onların hərtərəfli inkişafı üçün dövlət səviyyəsində mühüm qərar və sərəncamların verildiyi diqqətə çatdırılıb.

Polis əməkdaşları ailələrin problemləri




və qayğıları ilə maraqlanıb, həmçinin onların məktəbə gedəcək övladlarını "Bilik Günü" münasibəti ilə təbrik edib, yaxşı oxumağı, bilik və bacarıqlarını inkişaf etdirmələrini tövsiyə ediblər.

Uşaqlara çanta, məktəbli geyimi və gündəlik dərs ləvazimatları təqdim edilib.

Bu humanist aksiya azyaşlılar tərəfindən böyük sevinclə qarşılanıb. Uşaqlar üçün gözlənilməz olan hədiyyələr valideynlərin də sevincinə səbəb olub.

Daxili İşlər Nazirliyi rəhbərliyinin müvafiq göstərişinə əsasən, yeni dərs ilinin başlanması ilə əlaqədar 2019-cu il sentyabrın 15-dən oktyabrın 15-dək ölkə ərazisində «Diqqət, uşaqlar!» adı altında hərəkətin təhlükəsizliyi aylığına başlanılıb.

Dövlət yol polisi əməkdaşları respublikanın bütün şəhər və rayonlarında hərəkətin sıx olduğu küçə və prospektlərdə, eləcə də təhsil ocaqlarının yerləşdiyi ərazilərdə piyada keçidlərinin yenilənməsini, yol nişanlarının qaydaya salınmasını təmin edərək bir sıra təhlükəsizlik tədbirləri həyata keçiriblər. Uşaq və yeniyetmələrin iştirakı ilə yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində profilaktiki tədbirlərin gücləndirilməsi, habelə ümumtəhsil məktəblərində şagirdlərə təhlükəsiz davranış vərdişlərinin aşılanması məqsədilə maarifləndirici aksiyalar keçirilib. DYP əməkdaşları maarifləndirici şüarlar əks olunan plakatları rayonlar ərazisindəki məktəblərin önünə vurublar. Müəllimlər və valideynlərlə söhbətlər aparılaraq azyaşlı şagirdləri nəzarətsiz buraxmamaları, piyada keçidlərindən istifadə etmələri, dərslərdə şagirdlərə yol hərəkəti qaydaları haqqında məlumat vermələri tövsiyə edilib, onlara yol hərəkəti qaydalarını əks etdirən kitabçaları və məktəb ləvazimatları hədiyyə olunub.

Qeyd edək ki, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun müvafiq əmri ilə respublikanın daxili işlər orqanları yeni dərs ilinin başlanması ilə əlaqədar gücləndirilmiş iş rejimində fəaliyyət göstərib.

Sentyabrın 16-da ölkə paytaxtında, rayonlarda fəaliyyət göstərən təhsil müəssisələrinin yerləşdiyi ərazilər, ictimai qayda və təhlükəsizliyin qorunması məqsədilə nəzarətə götürülüb, valideynlərin və şagirdlərin təhlükəsizliyi təmin edilib.

*Natiq Cavadov,*
*polis mayoru*

# POLİS ANDI İÇDİLƏR...

**Sentyabrın 14-də bu il Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olunmuş və ilkin hərbi hazırlığı başa vurmuş kursantların andiçmə mərasimi keçirilib.**



Əvvəlcə ulu öndər Heydər Əliyevin və Azərbaycanın azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olanların, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycanın dövlət himni səsləndirilib.



Mərasimdə Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev çıxış edərək Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun təbrikini və ən xoş arzularını tədbir iştirakçılarına çatdırıb.

N.Əliyev əminliyini bildirib ki, bu gün and içən hər bir gənc öz şəxsi nümunəsi ilə polisin cəmiyyətdəki nüfuzunun daha da artmasına çalışacaq, onun şanlı ənənələrinə layiq olacaq, etimadı və inamı doğruldacaq. Akademiyanın rəisi kursantlara dövlətə, dövlətçiliyə və xalqa hər zaman sədaqətli olmağı, yaxşı oxumağı, hüquqi bilikləri incəliklərinədək öyrənməyi tövsiyə edib.

Sonra Polis Akademiyasına qəbul olunmuş və ilkin hərbi hazırlığı başa vurmuş kursantlar polis andını içiblər.

Kursantlar çıxış edərək bildiriblər ki, bu gün onların həyatında ən əlamətdar günlərdən biridir və bu anlar çətin, məsuliyyətli, həm də polisin sıralarına ilk qədəmlərini qoymaq hüququ qazanan hər bir gənc üçün qürurvericidir.

Mərasim "Polis Akademiyasının marşı"nın sədaları altında təntənəli keçidlə başa çatıb.

*Anar Qafarov,*
*polis baş leytenantı*

# MƏQSƏD XALQIN RİFAHIDIR

**Bütün sahələrdə aparılan islahatlar nəticəsində çox böyük infrastruktur layihələri icra edilib, insanların rifah halı yaxşılaşıb və ən əsası, ölkəmizin dinamik inkişafı üçün sağlam zəmin yaradılıb.**

Dövrün tələbinə uyğun olaraq, təkmilləşmə, iqtisadi imkanların artması fonunda güclü sosial siyasət, aztəminatlı ailələrə xüsusi diqqət və qayğı, özünüməşğulluq proqramının icrasına start verilməsi, müxtəlif kateqoriyadan olan vətəndaşların, ayrı-ayrı müəssisələrdə çalışan insanların əmək haqlarının, sosial müavinətlərinin artırılması, şəffaflığın təminatı məqsədilə "ASAN xidmət", "ABAD", "DOST" mərkəzlərinin yaradılması kimi biri-birindən mühüm layihələr ölkədə sabitliyin təminatçısı olan xalq-iqtidar birliyini şərtləndirən amillərdir.

Ölkə başçımız tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar inkişafın maliyyə resurslarını məhz vətəndaşların rifah halının yaxşılaşmasına yönəltməyə imkan verir. Dövlətimizin başçısının bu ilin ilk aylarından təsdiqlədiyi islahatlar paketi əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində inqilabi addımlar kimi dəyərləndirilir. Bu sırada problemli kreditlərin həlli, çoxmərtəbəli binalardakı mənzillərin sənədləşdirilməsi və digər məsələlərin, bir çox dalana dirənmiş problemlərin həlli əhali tərəfindən böyük rəğbətlə qarşılanır.

Minimum aylıq əməkhaqqının məbləği sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılıb. Dövlət qulluqçularının aylıq vəzifə maaşları 50, hərbiçilərin, hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqları 40 faiz artırılıb, pensiyaların minimum məbləği 160 manatdan 200 manata qaldırılıb.

Ölkəmiz minimum əməkhaqqının səviyyəsinə görə təkcə qonşularımızla deyil, MDB ölkələri ilə müqayisədə alıcılıq qabiliyyəti indeksi üzrə ikinci yerə sahibdir. Minimum əməkhaqqının artımı əhali gəlirlərinin artımına səbəb olmaqla, əmək bazarındakı proseslərə də müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin artmasını, digər tərəfdən əməyin leqallaşdırılmasını stimullaşdırır.

Göründüyü kimi, iqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanır. Ən əsası, uğurlu addımlar və nəticələr dövlətimizin başçısı İlham Əliyevin ilin əvvəlində səsləndirdiyi "2019-cu il sosial islahatlar ili kimi tarixə yazılacaq" proqnozunu reallıqda təsdiqləyir. Özünüməşğulluq proqramının icrası, kiçik və orta sahibkarlığın inkişafına lazımi dəstəyin göstərilməsi də sosial rifahın yüksəlməsinə yönələn addımlar sırasındadır.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# TORPAĞA DÖNÜB VƏTƏN OLAN OĞULLAR

**Dilavər sentyabrın 26-da mühasirəyə düşən yaralı yoldaşlarını xilas edərkən həlak olub.**

1962-ci ilin iyunun 22-də Suraxanı rayonunda anadan olmuşdu. Orta məktəbi bitirdikdən sonra 20 saylı Texniki-Peşə Liseyində çilingər peşəsinə yiyələnmişdi.



Yadımdadır, əsgərlikdən qayıdanda gözaydınlığına getmişdik. Əliheydər kişinin, Tamara xalamın sevincinin həddi-hüdudu yox idi. Hamıya Dilavərin tərifnamələrini göstərib onun yaxşı tankçı olduğunu deyir, fəxr edirdilər. Amma ağıllarına belə gəlməzdi ki, bu qüruru, bu duyğunu oğulları düz şəhidlik zirvəsinədək aparacaq...

Kiçik qardaşı Azər cəbhəyə könüllü getmişdi. 1992-ci ilin iyununda Ağdamda ağır yaralanmışdı. Elə həmin gün o da qərarını qətiləşdirdi.

Dilavər ailəli idi. Döyüşə yollanan zaman yenicə qız övladı dünyaya gəlmişdi.

O, ön cəbhədə tankçı kimi döyüşürdü. 1992-ci il iyulun 15-dən 26-na kimi Fərrux yüksəkliyi uğrunda qızğın döyüşlər getdi. Bu döyüşdə neçə-neçə oğullarımız şəhid oldular. Bu Dilavər üçün də son döyüş idi.

Sentyabrın 27-də Azərbaycanın dövlət bayrağına bürünmüş nəşi Bakıya gətirildi. Ertəsi gün Şəhidlər xiyabanında dəfn olundu.

İndi Suraxanıdakı 232 nömrəli tam orta məktəb Dilavər Məmmədzadənin adını daşıyır. Məktəbdə onun büstü də qoyulub, vaxtilə yaşadığı binanın önünə xatirə lövhəsi vurulub.

**Vətənin hər qarışını, otunu, daşını sevən, onun azadlığı, müstəqilliyinin qorunması üçün döyüşən və şəhid olan oğullardan biri də torpağa – Anamız, Atamız olan Torpağa qovuşdu...**

***Ruhiyyə Əliyeva,***
***polis baş leytenantı***

# GÜNƏŞ XƏZƏRDƏN, "XƏZRİ"DƏN DOĞUR

**Mərkəzin Qeydiyyat şöbəsinin əməkdaşı özünü təqdim etməmiş, mən onu qabaqlayıram və "Abdul İsmayılzadəni, Orxan İskəndərlini, Seyran Qurbanovu, Sənan Fəttahovu, Məhəmməd Məmmədovu, Vəfa Abdullayevanı bura gələn hər bir kəs tanıyır" sözümə gülümsəyib başı ilə razılığını bildirir. "Rəhbərliyin məlumatı var deməyim" əlavə suala yer qoymur və o, "kömək lazım olsa, deyin",- nəzakətini bildirir.**



Abdul 8 il, Orxan isə bir aydır ki, burada çalışır. Qeydiyyat şöbəsinin əməkdaşları növbəli şəkildə istirahətçilərə xidmət göstərirlər. Onlar ingilis və rus dillərində sərbəst danışırlar. Bir sözlə, hər hansı bir ölkədən gələn turist öz ana dilində qarşılanacaq və qaldığı müddət ərzində, əlbəttə ki, xoş istirahətin dadını çıxaracaq.



Tanış simalar gözə dəyir və onlar yaxşı bilirlər ki, gəlişimin səbəbi "Mübariz keşikdə" üçün material hazırlamaqdır. Və hiss edirəm ki, ürəkləri doludur. Böyüklərə deyil, uşaqlara üz tuturam. İlk müsahibim Ayşən olur. Atası polisdir. Hər il "Xəzri"yə gəlirlər. Mənim üçün ən maraqlısı adını soruşanda: "Xahiş edirəm, özünüzü təqdim edin" sualıdır. Düzü, bu, gözlənilməz olur. Deməli, Ayşən valideynlərinin "yad insanlarla ünsiyyət qurmaq olmaz" tələbini, tövsiyəsini yaxşı yadında saxlayıb. "Bax, bu gördüyün qəzetin müxbiriyəm",- deyəndə gülümsəyir və "Bu qəzetdən bizdə çoxdur, çünki hər dördüncü gün atam evə ondan gətirir",- deyir. Deməli, bizi uşaqlar da oxuyur. Bu isə həm də məsuliyyət hissimizi artırır, deməli, qəzetimizdə uşaqları da unutmamalıyıq, əslində, unutmuruq da.

Nuray Ayşənin böyük bacısıdır, "Gənc istedadlar" liseyinin 8-ci sinif şagirdidir. Ən xoşuna gələn "Xəzri"dəki sakitlikdir. O, boş vaxtlarında çox mütaliə edir. Gözləmə zalındakı kitabların bir neçə gün ərzində əksəriyyətini oxuyub.

Burada təmizliyə xüsusi diqqət yetirilir. Pərvanə xanım istirahətə gələnlərin təmizliyə riayət etdiklərindən razılığını ifadə edir. Mərkəzin rəis müavini, polis polkovnik-leytenantı Emil Quliyev ərazini gəzmək və istirahətçiləri çimərlikdən, ailəvi istirahət üçün nəzərdə tutulmuş kotejlərdən gətirmək üçün xüsusi ayrılmış avtomobillərdən istifadə etməyimi məsləhət görür. Günəşli havada böyük bir ərazini piyada gəzmək çətindir, ancaq yürüməyi sevənlər üçün bu da bir başqa zövqdür.

Bələdçim Azad Novruzovdur. O, 2014-cü ildən burada çalışır. Söhbətimiz tutur onunla. Kotejlər diqqətimi cəlb edir. Bələdçim onlar haqqında da ətraflı məlumat verir. Biz çimərliyə düşürük. Uzaqdan təhlükəsizlik üçün nəzərdə tutulmuş zolaq diqqətimi cəlb edir.

Deyəsən, qonağımız var. Çimərliyə düşmək üçün onları da özümüzlə götürürük. Günəşdən dəriləri qaralmış balacalar gözlərini məndən ayırmırlar. Birdən balaca qızcığaz dillənir: "Əmi, siz dənizdə paltarla çiməcəksiniz"? Gülmək bizi tutur və bu balacanın sualı söhbətimizə körpü salır. Sevinc xanım deyir ki, dörd ildir ki, "Xəzri"də dincəlirlər. Bir neçə dəfə xaricdə olsalar da buranın rahatlığını heç yerdə görməyiblər.

***Ah Xəzər, gözəl Xəzər. Qucağını qağayılar inci tək bəzər. Səndə tariximizin elə sirləri var ki, dalğaların dil açıb danışsa, günlər, aylar, bəlkə də illər bəs eləməz...***

Maşından düşən uşaqlar balaca qağayı balaları kimi özlərini dənizin qoynuna vururlar...

***Ardı var.***

***Hafiz Təmirov,***
***polis mayoru***

# BUNU TƏKCƏ MƏN DEMİRƏM...

*1990-cı il sentyabrın 1-i orta məktəbə ilk qədəm qoyduğum gün idi. Sevinirdim. Məni irəlidə yeni tanışlıqlar, yeni dostlar, macəralar, həm də həyatımda unudulmayan izlər buraxan xoş günlər gözləyirdi. Bəli, gözəl və qayğısız günlər...*

*Ancaq o zamanlar uşaq olduğum üçün bəzi məqamları anlaya bilmirdim, mahiyyətinə varmırdım. Valideynlərimin narahatlıq hisslərini də başa düşmürdüm. Söhbət həmin illərdə ölkəmizin yaşadığı ağır, çətin günlərdən gedir. Valideynlərimin sözü ilə desəm, "pis vaxtlar" idi. Cinayətkarlıq baş alıb gedirdi, kriminogen durum nəzarətdən çıxmışdı. İctimai asayişin və təhlükəsizliyin qorunmasına isə heç kəs təminat vermirdi.*

*Ulu öndərin hakimiyyətə gəlişi ilə bu hallara son qoyuldu, bütün sahələrdə olduğu kimi, daxili işlər orqanlarının da fəaliyyətində əsaslı dönüş yarandı, kriminogen durum nəzarətə götürüldü, ölkəmiz inkişaf və tərəqqi yoluna qədəm qoydu. Nəticə isə göz qabağındadır-müasir Azərbaycan...*

*Həmin vaxtdan 29 il ötüb. Sentyabr ayıdır. Yenə də sevincimin həddi-hüdudu ölçüyəgəlməzdir, sözlə ifadəsi çətindir. Çünki oğlum məktəbə, 1-ci sinifə gedir. Mən isə valideynlərimdən fərqli olaraq, övladımı tam rahat və əminliklə yola salıram. Bunu mən demirəm. Mənim kimi məktəbə övladını yola salan yüz minlərlə ata-ana deyir.*

*Nə gizlədim, ilk dərs günü polis olduğum üçün bir daha qürur duydum. Və həmin gün sevincim yerə-göyə sığmırdı. Övladını məktəbə göndərən, gələcəyinə xeyir-dua verən atalara, analara yaxşı tanışdır bu hiss...*

***Teymur Əlizadə,***
***polis kapitanı***

# TƏŞƏKKÜR EDİRLƏR

**Oxucularımız polisimizin xidmətindən yararlanan müxtəlif yaşlı, problemli-problemsiz insanlardır...**

**Bakı şəhər sakini Nəzrin Həsənova** itkin düşmüş azyaşlı övladının tez bir zamanda tapılaraq ona sağ-salamat təhvil verildiyinə görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlığını bildirir və həmkarlarımızla qürur duyduğunu ifadə edir.

**Gədəbəyin Slavyanka kəndindən müəllim İsbəndiyar İskəndərov** Rayon Polis Şöbəsinin əməkdaşlarının və polis veteranlarının iştirakı ilə keçirilən erkən nikah, dini radikalizm və narkomaniyaya qarşı mübarizə tədbirlərini bəyəndiyini, bunun çox faydalı olduğunu yazır.

**Daha bir paytaxt sakini Sevda Əliyeva** "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində yaradılan şəraitə, yenə **Bakıdan Rəşad Zamanov** isə avtomobilində yaranan nasazlığın aradan qaldırılmasında göstərilən köməyə görə minnətdarlıqlarını bildirirlər.

**Bakıdan Cavid Qurbanov və Tariverdi Vəliyev** müraciətlərinə tez bir zamanda baxılaraq, problemlərinin həllini tapmasında göstərdikləri köməyə görə daxili işlər orqanları əməkdaşlarına təşəkkürlərini bildirirlər.

**Tahir Həsənov** isə DİN-in Polis Akademiyasında kursantlar üçün yaradılan şəraitdən razılıq edir.

**Elmira Abdurəhmanova** ictimai qaydanın və təhlükəsizliyin qorunmasına, cinayətkarlıqla mübarizənin yüksək təmininə görə daxili işlər orqanları əməkdaşlarının fəaliyyətini yüksək dəyərləndirir.

**Astaradan Oğlan Baxşıyev, Qubadan Ehtiram Əliyev** də şikayətlərinə operativ və obyektiv şəkildə baxıldığına görə razılıq edirlər.

***A.Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# POLİSDƏN DAHA BİR NƏCİB ADDIM...
## BİLİK GÜNÜ ƏRƏFƏSİNDƏ





**Göyçay Rayon Polis Şöbəsinin əməkdaşları bu əlamətdar gün ərəfəsində aztəminatlı ailələrdən bir neçəsinin evinə baş çəkərək, azyaşlılara geyim, çanta, gündəlik dərs ləvazimatı hədiyyə ediblər. Yeniyetmələrlə görüşdə polislərimiz onların Vətənə layiq, sədaqətli övlad kimi böyümələrini arzulayıblar.**

Bu tədbir uşaqlar tərəfindən də böyük sevinclə qarşılanıb, onlar da dərs ilini əla qiymətlərlə başa vuracaqlarına söz veriblər. Valideynlər isə onlara göstərilən diqqət və köməkliyə görə öz minnətdarlıqlarını bildiriblər.

***Natiq Abdullayev,***
***Mahir Məsimov***

**Şəhid və aztəminatlı ailələrin qayğıları daim diqqət mərkəzindədir. Daxili işlər orqanlarının əməkdaşları da onlara kömək kimi nəcib təşəbbüsdən kənarda qalmırlar.**

Mətbuat Xidmətinin Şirvan regional qrupundan verilən məlumata görə, yeni tədris ili ərəfəsində Şirvan Şəhər Polis Şöbəsində övladları birinci sinifə gedəcək şəhid və aztəminatlı ailələrin üzvləri ilə görüş keçirilib.

Görüş zamanı dövlətimizin bu ailələrə göstərdiyi diqqət və qayğı vurğulanaraq, onların üzləşdikləri çətinliklərin aradan qaldırılması üçün görülən işlərdən danışılıb.

Daha sonra şəhid və aztəminatlı ailələrin övladlarına məktəb ləvazimatlarından ibarət hədiyyələr təqdim edilib.

***Toğrul Nəsirli***

# VƏTƏNƏ BÜRÜNC MEDALLA QAYITDI

**Bu yaxınlarda Bolqarıstanın paytaxtı Sofiyada gənclər arasında boks üzrə Avropa çempionatı keçirilib. Milli komandamızın da qatıldığı qitə birinciliyində oğlanların yarışına 37 ölkədən 213 boksçu iştirak edib.**



Milli komandanın tərkibində DİN İdman Cəmiyyətinin yetirməsi Murad Allahverdiyev də qələbə uğrunda mübarizə aparıb. Çəkisi 81 kiloqramadək olan idmançıların yarışında ölkəmizi təmsil edən M.Allahverdiyev finaladək irəliləyərək bürünc medal qazanıb.

M.Allahverdiyevi yarışa hazırlayan DİN İdman Cəmiyyətinin Boks bölməsinin müəllimi, əməkdar məşqçi Yadigar Məmmədov yetirməsinin bu uğurunu şərh edərkən bildirib ki, boksçumuzun potensialı daha böyük qələbələrə ümid verir və o, mötəbər yarışlara hazırdır.

# QIZI XİLAS ETDİLƏR

**Saatlı rayonundan Bakıya qız qaçıran şəxs yol polisləri tərəfindən tutulub.**

Hadisə bir neçə gün əvvəl Binəqədi rayonunda baş verib. Saatlı rayon Soltankənd sakini Oqtay Nağıyev "102" xidmətinə məlumat verib ki, 18 yaşlı qızını naməlum şəxslər qaçırıb.

Məlumat əsasında polis "Təhlükəsiz şəhər" kameraları vasitəsi ilə qızın qaçırıldığı avtomobilin istiqamətini müəyyən edib. Növbətçi Hissələri İdarəetmə Xidmətindən Baş Dövlət Yol Polisi İdarəsinin "Ekologiya" postuna məlumat verilib ki, üzü şəhər istiqamətində hərəkət edən "Hyundai" markalı avtomobil saxlanılsın.

Yol polisi əməkdaşları məlumat əsasında yoldakı avtomobilləri nəzarətə götürüb və çox çəkməyib ki, həmin nəqliyyat vasitəsini aşkar ediblər.

Rayon Polis İdarəsinin əməkdaşlarını əraziyə çağırıblar. Əməliyyatçılar hadisə yerinə gəldikdən sonra sürücü təslim olub.

Polis idarəsində araşdırma aparılarkən müəyyən edilib ki, Saatlı rayon Mircəlal kənd sakini Ruhid İslamov evlənmək məqsədilə qızın razılığı olmadan zorla qaçırıb rayondan paytaxta gətirirmiş. Qız xilas edilərək ailəsinə təhvil verilib.

Faktla bağlı cinayət işi başlanıb.

***A.Natiq,***
***H.Zeyni***

# Leş axtaranlar...

***Bu xəbər saytlara ayaq açandan və gündəmin manşeti olandan sonra yəqin ki, çoxunuz evinizə ət almağa tərəddüd etdiniz. Hətta tanış qəssablara belə ürəyinizdə şübhə yarandı...***



Görəsən, neçə nəfər cinayətkarlıqla mübarizə ilə yanaşı, sağlamlığımızın da keşiyində duran polisimizə ürəyində "Bərəkallah", "Afərin" dedi. Bəziləri hətta bu xəbərdən sonra "Guya polis və digər qurumlar onları görmürdülərmi" iradı ilə tənqidlərinin "ağzını itilədilər" də. Ancaq bir məsələ var. Bu "leş ovçuları"na mal, əl və dil verənlər elə bələləridir. Dəfələrlə eşitmişəm: filankəsin malı, heyvanı ölmüşdü, maşın vurmuşdu, gəlib "kolbasaya" apardılar və s. Kimlər aldı, kimlər apardı, heç xəbəriniz oldumu, heç maraqlandınızmı?

Əslində, hər bir vətəndaş daxilən polis olmalıdır-qanuna hörmət edən, onun keşiyində duran, öyrənən və bilən. Şərt o deyil ki, uniforma geyinəsən, dövlət tərəfindən sənə qanunvericilik çərçivəsində müəyyən səlahiyyətlər verilə. Cəmiyyətdəki neqativlər müəyyən zaman çərçivəsində adidən-aliyə, kiçikdən-böyüyə kimi yol qət edirsə və heç bir maneəyə rast gəlmirsə, heç bir təpki görmürsə, deməli, biz sağlamlığımıza, sabahımıza biganəyik. Bax, elə bu "leş alverçiləri" də bizim zəif damarımızı, biganəliyimizi və əlbəttə ki, meydanı boş görüb at oynadıblar.

"Nəticə bundan sonra necə olardı" sualına cavab axtarmaq yox, konkret cavab vermək üçün bir müddət öncə baş verən qida zəhərlənmələrinə diqqət çəkmək yetərlidir. Paytaxtda və yerlərdə baş verən qida zəhərlənmələrinin açılan kələfinin bir ucunun, sizcə, bu "leşçilərlə" bir bağlılığı yoxmu? Polisin araşdırmasından və maddi sübutlardan sonra "var" deməyə cəsarətlənirik, çünki əlahəzrət fakt meydandadır.

Təəssüf ki, insanlarımız hələ də qida təhlükəsizliyindən xəbərsizdirlər. Maariflənməyə ehtiyac var. Paytaxtda, regionlarda bununla bağlı tədbirlər keçirilməlidir. Narkomaniya, dini radikalizm, erkən nikah və digər bəlalar kimi qida təhlükəsizliyi də hər birimizi düşündürməlidir.

Əgər mütəşəkkil dəstə tərkibində birləşən, əvvəllər eyni əməllərə görə məhkum olunmuş şəxslərin yaratdığı şəbəkənin üzvlərinin yeni qurbanı olmağımızı, əzizlərimizin sağalmaz xəstəliklərdən əziyyət çəkməsini istəmiriksə, o zaman, gəlin, birlikdə mübarizə aparaq. Gördüyünüz neqativi polisə deməkdən çəkinməyin…

Əvvəllər məhkum olunmuş "Leş Tofiq"- Alıbəy Rzaxanov öz layiqli cəzasına çatacaq. Amma onun kimilər hələ də var və azadlıqda leş axtarırlar...

***Hafiz Təmirov,***
***polis mayoru***

**DİN rəhbərliyinin müvafiq göstərişinə əsasən, yeni dərs ilinin başlanması ilə əlaqədar bu il sentyabr ayının 15-dən oktyabrın 15-dək ölkə ərazisində «Diqqət, uşaqlar!» adı altında hərəkətin təhlükəsizliyi aylığı keçiriləcək.**



# "Diqqət, uşaqlar!" aylığına start verildi

Əsas məqsəd uşaq və yeniyetmələrin iştirakı ilə yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində profilaktiki tədbirlərin gücləndirilməsi, habelə ümumtəhsil məktəblərində şagirdlərə təhlükəsiz davranış vərdişlərinin aşılanması və tədris prosesinin effektliyinin yüksəldilməsinə dövlət yol polisinin köməyinin artırılmasıdır.

Göstərişə əsasən, uşaq və yeniyetmələrin iştirakı ilə baş vermiş yol-nəqliyyat hadisələrinin təhlili aparılaraq, onların səbəblərinin və şəraitin aradan qaldırılması üzrə konkret profilaktiki tədbirlər görülməlidir.Təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə, habelə uşaq və yeniyetmələrin toplaşdığı yerlərdə, onların hərəkət marşrutlarında yol şəraitinin yenidən müayinə olunması, hərəkətin təhlükəsiz təşkili nəzərə alınmaqla müvafiq işlərin, o cümlədən yol nişanlarının qoyulması, yararsızlarının yenilənməsi, nişanlama xətlərinin çəkilməsi və digər tədbirlərin həyata keçirilməsi DİN-in müvafiq orqanlarına tapşırılmışdır.

# "XƏZRİ" sizi gözləyir!




**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2019-cu il - 31 may 2020-ci il tarixlərə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 16 sentyabr 2019-cu il - 31 may 2020-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75.00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90.00 manat | 150.00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50 manat | |

Hollandiyada toy karvanları ilə bağlı yeni qayda hazırlanır. Rotterdam bələdiyyəsi toy karvanına xəbərdarlıq edən polislərdən birinin döyülməsindən sonra belə qərar qəbul edib.

Yeni qaydaya əsasən, bundan sonra ev sahibləri 6 həftə əvvəl bələdiyyəyə müraciət edərək icazə istəməli, toy karvanına qatılacaq maşın və adamların sayı barədə məlumat verməlidir. Baş verəcək hər hansı xoşagəlməz hadisəyə görə məhz onlar məsuliyyət daşıyacaqlar. Qaydalar pozulduğu halda toy sahibləri toyda iştirak edən hər kəsə görə ayrıca cərimə ödəyəcəklər.

*****




***Tbilisidən Azərbaycanla sərhəddə yerləşən "Qırmızı körpü" sərhəd-keçid məntəqəsinə qədər olan avtomobil yolunda "ağıllı kameralar" quraşdırılıb. Bu barədə Gürcüstanın Daxili İşlər Nazirliyi məlumat yayıb.***

***Sürət həddini müəyyən edən "smart kameralar" Kvemo Kartli (Borçalı) bölgəsində 4 lokasiyada yerləşdirilib. "Ağıllı kameralar" avtomobilin müəyyən olunan sürət həddini aşmasını avtomatik müəyyən edir və videocərimə tətbiq edir.***

*****

ABŞ-ın Florida ştatının sakini 22 il əvvəl itkin düşmüş Uilyam Moldtun cəsədi təsadüf nəticəsində "Google Earth" xidməti vasitəsilə aşkar olunub.

U.Moldtla 1997-ci ildən bəri əlaqə yaratmaq mümkün olmayıb. Onun axtarışları da nəticə vermədiyindən itkin düşmüş hesab edilib.

Bu ilin avqust ayının sonlarında Leyk-Uort şəhərinin sakinlərindən biri "Google" xəritə proqramı vasitəsilə təsadüfən öz evinin yaxınlığındakı göldə batmış avtomobili görüb. Bu barədə o, polisə məlumat verib. Avtomobil çıxarılıb və içərisində insan skeleti aşkar olunub. Bir həftəlik ekspertiza müayinəsindən sonra skeletin itkin düşmüş Moldta aid olduğu üzə çıxıb.

*****

***Portuqaliya Polis İdarəsinin Milli Antikorrupsiya Birliyi Avropol əməkdaşları ilə birlikdə Avropanın ən iri pul mafiyasına qarşı "Deep Money" adlı xüsusi əməliyyat keçirib. Saxta pulların dövriyyəsi ilə məşğul olan dəstəni idarə edən və dörd şübhəli həbs olunub.***

***Bildirilir ki, istintaq iki il ərzində fırıldaqçıların nominal dəyəri 1 milyon avrodan artıq, 26 mindən çox saxta pul çap etdiyini və gizli yollarla satıldığını müəyyən edib. Saxta pullar Fransa, Almaniya, İspaniya və Portuqaliyada da üzə çıxıb.***

***"Saxta pullar əsas məxfi yollarla marketlərin birində reklam edilib. Sifarişlər şəxsi mesajlarla və ya şifrələnmiş söhbətlər vasitəsilə qəbul edilib", - deyə Portuqaliya polisi bildirib.***

***Polis səkkiz dəfə axtarışlar apardıqdan sonra ümumi dəyəri 70 min avro (77 min dollar) olan 1833 saxta pul, habelə onların istehsalı üçün müxtəlif avadanlıq və ləvazimatlar - kompüterlər, printerlər, təhlükəsizlik kağızı, hologramlar, öz-özünə yapışan holoqrafik lentlər, mürəkkəblər və mürəkkəb katriclər müsadirə edib.***

***C.Natiq***

# Sentyabrın 11-dən 17-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 122 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 57 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 144, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 5, borclu şəxs qismində axtarışda olan 56 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 18 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 20 nəfər ölmüş, 15 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 58 fakt müəyyən edilmişdir.

# MONİTORİNQ KEÇİRİLİB

İşgəncələr Əleyhinə Azərbaycan Komitəsi DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsininin Müvəqqəti Saxlanma Yerində monitorinq keçirib.

Monitorinq zamanı idarənin müvəqqəti saxlanma yerində saxlanılan 2 nəfərlə görüşüblər. Bildirilib ki, saxlanılan şəxslər Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə təqsirləndirilirlər. Onlarla fərdi söhbətlər aparılıb, saxlanma şəraiti, rəftarla maraqlanıblar. Saxlanma şəraiti, qidalanma, rəftarla bağlı heç bir şikayətləri olmayıb, səhhətləri normal olub.

Komitə əməkdaşları saxlanma yerlərindəki şəraitlə də maraqlanıblar: "Havalandırma sistemi, gəzinti meydançası, saxlanılan şəxslərin asudə vaxtları üçün yaradılan şərait normal idi. Baş idarə rəisi ilə görüşümüz zamanı o bildirib ki, yaxın vaxtlarda saxlanma yeri yenidən təmir olunacaq".

Monitorinqin nəticələrinə görə, müvəqqəti saxlanma yerində şərait tam normal qiymətləndirilib.

***N.Cavadov***

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti Daxili Təhqiqatlar İdarəsinin rəis müavini Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Daxili Qoşunların Baş İdarəsi Kadrlar İdarəsinin rəisi Nəsir Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elçin Lütvəliyev, Vaqif Abdullayev, Ələkbər Abdullayev, Əziz İsaxanov Salyan RPŞ-nin əməkdaşı Kərim Xələfova atası, istefada olan polis polkovniki

**ASİF XƏLƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİO Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun icraçı direktoru Sadiq Gözəlov Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Nəsir Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mehriban Quliyeva, Aytəkin Nəcəfova, Ruhiyyə Əliyeva, Sevinc Qafarova, Elnarə Həsənova BDYPİ-nin əməkdaşı Müşkünaz Hüseynovaya oğlu

**RƏCƏB QULİYEVİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 16:30